**Ənvər Məhəmməd oğlu Abbasov,**
Azərbaycan Respublikası Təhsil İnstitutunun direktor müavini,
Kurikulum Mərkəzinin direktoru, pedaqoji elmlər namizədi, dosent

## ANA DİLİ DƏRSLİKLƏRİ NECƏ OLMALIDIR?

**Анвар Магомед оглы Аббасов,**
Заместитель директора Института Образования Азербайджанской Республики,
Директор Центра учебных программ, кандидат педагогических наук, доцент

## КАКИМИ ДОЛЖНЫ БЫТЬ УЧЕБНИКИ ПО РОДНОМУ ЯЗЫКУ?

**Anvar Mohammed Abbasov,**
deputy director of the Institute of Education of the Republic of Azerbaijan,
director of the Curriculum Center, candidate of pedagogical sciences, associate professor

## WHAT SHOULD BE THE TEXTBOOKS ON THE NATIVE LANGUAGE?

**Xülasə:** Məqalədə dərsliklərin, xüsusilə ana dili dərsliklərinin yaranması tarixindən söhbət açılır, bu yolda görkəmli Azərbaycan maarifpərvərlərinin fəaliyyəti qeyd olunur. Həmçinin şagirdlərin təfəkkürünün, nitq mədəniyytəinin formalaşmasında, onların özünüreallaşdırmasında, özünütəqdimetməsində ana dili dərsliklərinin rolundan bəhs edilir. Qeyd olunur ki, ana dili dərslikləri uşaqların milli-mənəvi keyfiyyətlərə, bəşəri xüsusiyyətlərə yiyələnmələri üçün baza rolunu oynayır.

**Açar sözlər**: *dil, təfəkkür, ana dili, ana dili dərsliyi, dilçilik anlayışı, predaqoji problem, motivləşmə, istiqamətləndirici məzmun, nitq mədəniyyəti, özünüreallaşdırma, özünütəqdimetmə;*

**Резюме:** В статье рассказывается об история учебников, особенно учебников по родному языку, и отмечается деятельность в этой области выдающихся азербайджанских просветителей-педагогов. Также рассматривается роль учебников по родному языку в формировании речевой культуры, самоидентификации, самореализации мышления учащихся. Отмечается, что учебники по родному языку играют основную роль детей в приобретении национально-нравственных и человеческих качеств.

**Ключевые слова:** *язык, мышление, родной язык, учебник родного языка, понятия языковедения, педагогический проблем, мотивация, направляющее содержание, речевая культура, самореализация, самопредставление*



**Summary:** The article describes the history of textbooks, especially textbooks in the native language, and highlights the activities in this field of prominent Azerbaijani enlighteners and educators. The role of textbooks on the native language in the formation of speech culture, self-identification, self-realization of students' thinking is also considered. It is noted that textbooks on the mother tongue play the main role of children in the acquisition of national-moral and human qualities.

**Key words:** *language, thinking, native language, native language textbook, linguistic concepts, pedagogical problems, motivation, directing content, speech culture, self-realization, self-representation.*

Dil təfəkkürlə bağlı bir anlayışdır. Ona görə də ana dilindən danışarkən onun təfəkkürü inkişaf etdirdiyini xüsusi olaraq qeyd edirlər.

Azərbaycanın görkəmli ədəbiyyatşünas alimi, maarifpərvər şəxsiyyət Firudin bəy Köçərli hələ ötən əsrin əvvəllərində bu məsələdən bəhs edərkən demişdir: "Hər millətin özünəməxsus ana dili vardır ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir, həyatının mayasıdır. Ananın südü bədənin mayası olduğu kimi, ana dili də ruhun qidasıdır. Hər kəs öz anasını və vətənini sevdiyi kimi, ana dilini də sevir". Ona görə də bəşər övladı həmişə ana dilinə qayğı göstərməyi, onu öyrənməyi özünə müqəddəs borc bilmişdir. Görünür, məktəblərdə ana dili dərsliklərinin yaradılması da bu məntiqdən irəli gəlmişdir. Tarix boyu insanlar müxtəlif zaman çərçivəsində ana dili dərsliklərinin yaradılmasına təşəbbüs göstərmiş, onun orijinal nümunələrini yaratmışlar.

Azərbaycan təhsilinin tarixində dərsliklərin yaradılması xüsusi bir problem kimi maraq doğurmuşdur. Xüsusilə, ana dili dərsliyinin hazırlanması, onlardan istifadə olunması Azərbaycan xalqının böyük nümayəndələrinin, maarifpərvər şəxsiyyətlərinin diqqətini cəlb etmişdir. Azərbaycanda məktəbin, təhsilin tarixi çox qədim olsa da, Azərbaycan dilinin bir fənn kimi öyrənilməsinə başlanılması XIX əsrin birinci yarısına təsadüf edir. Ölkəmizin müxtəlif şəhərlərində qəza məktəbləri yaradıldıqdan sonra orada digər fənlərlə yanaşı, Azərbaycan dilinin də öyrənilməsinə başlanılır.

Məlum olduğu kimi, təhsil mütəxəssisləri "Əlifba"nı ilk ana dili dərsliyi hesab edirlər. Ümumiyyətlə, "Əlifba" dərsliyinin yaradılması mənsub olduğu xalqın milli şüurunun oyanması hadisəsi kimi qiymətləndirilir. Azərbaycanda ilk "Əlifba" böyük ədib, dramaturq, filosof, maarifpərvər şəxsiyyət Mirzə Fətəli Axundzadəyə məxsusdur.

1839-cu ildə böyük mütəfəkkir, dilçi-alim, şərqşünas, maarifpərvər şəxsiyyət Mirzə Kazım bəy də "Türk-tatar dillərinin qrammatikası"nı (Azərbaycan dili) yazır.

Hər iki kitab Azərbaycan dili dərsliklərinin yaradılmasında bünövrə hesab edilir. Onların sonra müxtəlif xarakterli dərsliklər hazırlanmışdır.

Ümumiyyətlə, Azərbaycan dili dərsliklərinin yaradılması tarixini tədqiqata cəlb edən alimlərin gəldiyi qənaət ondan ibarətdir ki, XIX əsrin əvvəllərindən başlayaraq Azərbaycan dilinə aid yaradılmış dərsliklər, əsasən, iki qrupa ayrılır.

Onlardan birincisi rus məktəblərində oxuyan şagirdlərə, gələcəkdə tərcüməçi olacaq və dövlət idarələrində müəyyən vəzifələrdə işləmək üçün hazırlanan gənclərə Azərbaycan dilini öyrətmək üçün yazılan dərsliklər, ikincisi isə mollaxanalarda və rus-müsəlman məktəblərində azərbaycanlı uşaqlara ana dilini öyrətmək üçün hazırlanan Azərbaycan dili dərslikləridir. Araşdırmalar müasir dövrdə də hazırlanan Azərbaycan dili dərsliklərinin xarakter etibarilə iki tipə ayrıldığını göstərir: Azərbaycan dilinin ana dili kimi öyrənilməsinə yönəlmiş dərsliklər; Azərbaycan dilinin dövlət dili kimi öyrənilməsinə yönəlmiş dərsliklər.

Mövcud dərsliklərin təhlili onu göstərir ki, Azərbaycan dili dərslikləri hazırlanarkən iki cəhətə daha çox diqqət yetirilir. Əvvəla, dərsliklərin böyük bir qismində dilçilik anlayışının üstün yer tutmasına daha çox fikir verilir. Praktik iş növləri, xüsusən çalışma və tapşırıqlar linqvistik xarakter daşıyır. Onlar daha çox deklarativ biliklərin möhkəmləndirilməsinə istiqamətləndirilir. İkinci qrup dərsliklər isə daha çox mətnlərdən ibarət olmaqla, qiraət xarakteri daşıyır. Bu dərsliklərdə lüğət ehtiyatının zənginləşdirilməsi, təfəkkür vərdişlərinin formalaşdırılması, cümlə qurmaq, onların müxtəlif modellərindən istifadə etmək vərdişləri üzərində iş aparmaq imkanları zəif olur.

Beləliklə, hər iki halda Azərbaycan dili dərsliklərinin didaktik əhəmiyyət baxımından birtərəfli olduğu aşkara çıxır.

Azərbaycanın müstəqilliyi şəraitində, təfəkkür məktəbinin yarandığı bir dövrdə dərsliklərin hazırlanmasına verilən tələblər artıq dəyişmiş, yeni mahiyyət kəsb etmişdir. Ona görə də Azərbaycan dili dərsliklərinin hazırlanması baxımından yeni tələblər meydana çıxmış, bunların nəzərə alınması zərurəti yaranmışdır.

Bu tələblər hansılardır?

***1. Dərsliyin hazırlanmasına pedaqoji problem kimi yanaşılması.***

Dərsliklərin yaradılması sahəsindəki təcrübələr onu göstərir ki, müəlliflər dərsliklərin hazırlanmasına pedaqoqika elminin deyil, hər hansı digər elmin problemi kimi yanaşırlar.

Müşahidələr onu göstərir ki, ənənəvi Azərbaycan dili dərsliklərində bu xüsusiyyət daha qabarıq nəzərə çarpır. Bu dərsliklərdə fonetika, leksika, söz yaradıcılığı, sözün tərkibi, morfologiya, sintaksis, nitq mədəniyyəti, üslubiyyat materialları ardıcıllıqla verilir. Dərsliklərin belə bir sistemlə hazırlanması onun daha çox deklarativ materiallarla yüklənməsinə gətirib çıxarır. Bundan əlavə, həmin dərsliklərin müəllifləri dilçilik elminin daxili məntiqinə tabe olmaqla, onu daha çox monoqrafik üslubda yazmağa meyil göstərirlər. Bu proses dilçilik elminin məntiqinə uyğun olmayan,lüzumsuz anlayışlarla yüklənmiş dərsliklərin meydana çıxması ilə nəticələnir. Ona görə də ümumtəhsil məktəbləri üçün Azərbaycan dili dərsliklərindən danışanda onların keyfiyyətinə, anlayışların təhlilinə, nəzəri mülahizələrin doğruluğuna elmin nailiyyətləri baxımından yanaşılır, qiymət verilir.

Heç şübhəsiz, Azərbaycan dili dərslikləri öz məzmununda, fənnin tələbinə uyğun olaraq, müəyyən nəzəri anlayışları ehtiva edir. Onun tərtib olunmasında *elmilik,* zəruri prinsiplərdən biri kimi, əsas götürülür. Dilçilik elminin son nailiyyətlərinin dərsliklərə gətirilməsi, onlardan həyati bacarıqların formalaşdırılmasında istifadə edilməsi mühüm tələb kimi qarşıya qoyulur, lakin bu, elmin əsaslarının kursun məzmununa daxil edilməsinə, dərsliklərin bütövlükdə nəzəri anlayışlar mənbəyinə çevrilməsinə heç də əsas vermir.

Ümumiyyətlə, Azərbaycan dili dərsliklərinin hazırlanması ciddi pedaqoji problemdir. Onun həll edilməsi üçün cəmiyyətin real tələbatlarına uyğun təhsil standartlarının yaradılması, bu prosesi tənzimləyən didaktik prinsiplərin müəyyənləşdirilməsi vacibdir. Yalnız bundan sonra mükəmməl Azərbaycan dili dərsliklərinin hazırlanmasından danışmaq olar.

Dərslik öz mahiyyət və məzmununa, funksiyalarına görə digər vəsaitlərdən, kitablardan fərqlənir. Uzun zaman ona məlumat mənbəyi kimi baxılsa da, illər keçdikcə dərsliyin struktur elementlərinə şagirdlərin bacarıq və vərdişlərini formalaşdırmaq üçün lazım olan təlim materialları daxil edilmişdir. Bu dəyişmə, təkmilləşmə onun əhəmiyyətinin və rolunun artması ilə baş vermişdir. Xüsusilə, indiki dövrdə dərsliyin funksiyasında daha əsaslı dəyişikliklər etmək, onun hazırlanmasını ciddi pedaqoji problem kimi tənzimləmək, elmi, nəzəri əsaslarda başa çatdırmaq tələb olunur.

Yeni Azərbaycan dili dərslikləri ilə bağlı aparılan araşdırmalardan alınan ilkin nəticələr bundan ibarətdir: "Kurikulumlara uyğun dərsliklərin əvvəlkilərdən fərqli qaydada hazırlanacağı, tədris vahidlərindən ibarət hissələrə malik bir vəsait kimi formalaşdırılacağı nəzərdə tutulur. Paraqraflardan ibarət hər tədris vahidindən sonra yekunlaşdırıcı qiymətləndirmə vasitələrinin (test tapşırıqlarının) verilməsi əhəmiyyətli hesab edilir" [İsgəndərov İ. Yeni dərsliklər necə olmalıdır? "Kurikulum" jurnalı, 2008, №2.]

Ümumi təhsilin şəxsiyyətyönümlülüyü, şagirdlərdə nəticələrə uyğun səriştələrin formalaşdırılması Azərbaycan dili dərsliklərinin tədris vahidlərindən, hər bir tədris vahidinin paraqraflardan ibarət olması, onların qiymətləndirmə vasitələri ilə tənzimlənməsi, habelə Azərbaycan dili dərsliklərinə uyğun iş dəftərlərinin hazırlanıb şagirdlərin istifadəsinə verilməsi zərurətini doğurur.

Azərbaycan dilinə aid dərslik və iş dəftəri üzərində müəllimin fəaliyyətini nizamlamaq məqsədilə müəllim üçün vəsait hazırlanır. Mahiyyət etibarilə bu vəsait yalnız müəllimlərə aid olduğundan, burada onun bütün fəaliyyətini tənzimləyən materiallar verilir. Dərslikdəki sualların, tapşırıq və çalışmaların açılışları bu kitabda öz əksini tapır.

***2. Dərsliklərin istiqamətləndirici məzmuna malik olması.***

Azərbaycan dili dərsliklərinin yaradılması tarixində ondan istifadə edənləri məlumatlandırmaq, onlara elmin sahələri ilə bağlı müəyyən biliklər vermək ön planda dururdu. Bu səbəbdən də bəzi pedaqoji ədəbiyyatlarda dərsliyin informasiya vermək funksiyasından danışılmış, onun mahiyyətindən bəhs olunmuşdur. Təbii ki, bir tədris vəsaiti kimi, dərsliklərin informasiya mənbəyi olması zərurətdir, lakin hazırkı dövrdə informasiya mənbələrinin çoxalması və çeşidli informasiyaların içərisindən ən lazımlısının seçilməsi onu göstərir ki, dərslik informasiya mənbəyi olmaqdan daha çox

istiqamətləndirici mahiyyət kəsb etməlidir. Onun materiallarının məzmununda, ardıcıllığında və sistemində şagirdi fəaliyyətə sövq edən, istiqamətləndirən bir məntiq dayanmalıdır.Bunların reallaşmasının əsasını şagirdin stimullaşdırılması, onda təlim marağının yaradılması, motivləşmə təşkil edir. "Motivləşmə dedikdə, orqanizmi fəallaşdıran və həmin fəallığı istiqamətləndirən təhriklər nəzərdə tutulur" [Bayramov Ə., Əlizadə Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı, "Maarif", 1989]. Psixoloqların gəldiyi qənaət bundan ibarətdir ki, "... qabiliyyətli uşaqların bir çoxu motivasiya çatışmazlığı ucbatından yaxşı oxumur" [Əlizadə Ə. İdrak prosesləri və hisslər. Psixopedaqoji məsələlər. Bakı, 2006.]. Ona görə də təlimin səviyyəsini yüksəltmək üçün uşaqların öyrənmə marağına təsir göstərmək, onu stimullaşdırmaq vacib hesab edilir. Bunun üçün mühüm yollardan biri vasitələr sistemini həmin tələblərə uyğunlaşdırmaqdan ibarətdir. Bu isə öz növbəsində dərsliyin motivasiya imkanlarını genişləndirməyi tələb edəcəkdir.

Tədqiqatlar göstərir ki, dünyada bu problemin həllinə iki istiqamətdə yanaşılır. *Birinci,* dərsliklərin maraqlı təlim vəsaitinə çevrilməsi üçün təlim tapşırıqları, şagirdlərin yaş səviyyəsinə uyğun olaraq, daha çox oyun elementləri, mütəhərriklik tələb edən maraqlı fakt və hadisələr üzərində qurulur. *İkinci,* dərslikləri idraki tapşırıqlarla zənginləşdirmək üstün keyfiyyət kimi qəbul olunur, çünki bu pillədə şagirdlərin təfəkkür fəallığını tələb edən məsələlərə, tapşırıqlara daha çox diqqət yetirilir. Şagirdlər bu tapşırıqların icrasından, əldə etdikləri nəticələrdən həzz alır, qürur hissi keçirirlər.

Təbii ki, bu cəhətlərə ümumi təhsilin bütün pillələrində eyni səviyyədə yanaşmaq düzgün olmazdı. Belə ki, ibtidai təhsildə deyilən cəhətlərin hər ikisinin olması məqbul sayılsa da, həmin pillədə şagirdləri maraqlandıran oyun elementlərinə, müxtəlif məzmunlu fakt və hadisələrə üstünlük verilməlidir. Əsas və orta təhsil pillələrində isə şagirdlərin idraki maraqlarının obyekti, təfəkkür tərzi onların mürəkkəb tapşırıqlar üzərində işləmələrini və buna üstünlük verilməsini tələb edir. Həmçinin ən müasir texnologiyalardan – informasiya və kommunikasiya texnologiyalarından istifadə imkanlarının genişləndirilməsinə yer ayrılması yüksək dəyərləndirilir.

Şagirdlərin axtarışa, tədqiqatçılığa sövq olunması Azərbaycan dili dərsliklərinin mühüm istiqamətverici xüsusiyyətidir. Bu cəhət bütün ümumtəhsil məktəblərinin dərsliklərinə şamil edilir,onların hazırlanmasında mühüm tələb kimi qarşıya qoyulur. Bunu müasir dövrün təhsil tendensiyası, qlobal dünyanın informasiya bolluğu və intellekt əsrinin inkişaf qanunauyğunluqları diktə edir. Ona görə də "Müasir təhsil konsepsiyası ənənəvi didaktik sistemdən fərqli olaraq, koqnitiv strukturların inkişafı problemini sadəcə olaraq hafizə məkanında deyil, yeni psixoloji məkanda – təfəkkür və hisslər məkanında həll edir" [Əlizadə Ə. İdrak prosesləri və hisslər. Psixopedaqoji məsələlər. Bakı, 2006.]. İlkin araşdırmalar onu göstərir ki, şagirdlərin axtarışlara sövq olunması, onların bir tədqiqatçı kimi fəaliyyətə cəlbi dərsliklərdə idrak fəallığını tənzimləyən sistemli çalışmaların, eləcə də sual və tapşırıqların olmasını tələb edir. Ona görə də bu çalışma və tapşırıqlar hazırlanıb dərsliklərə daxil edilərkən şagirdlərin fəaliyyət mərhələləri diqqət mərkəzində saxlanılmalıdır.

*Özünüreallaşdırma, özünütəqdimetmə* müasir insanın ən mühüm keyfiyyətlərindən biridir. Təlim-tərbiyə prosesində bu işin dəstəklənməsi, onun müəllim və şagird fəaliyyətinin mərkəzinə gətirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bunun mühüm bir yolu Azərbaycan dili dərsliklərində təfəkkür müstəqilliyini təmin edən, onu daha qabarıq göstərən materialların, o cümlədən, çalışma və tapşırıqların verilməsidir. Müasir dərsliklərin hazırlanması ilə bağlı aparılan araşdırmalarda da belə nəticəyə gəlinmişdir: "... şagirdləri fəaliyyətə sövq etməklə tətbiqi xarakter daşıması yeni dərsliklərin əsas keyfiyyətlərindən hesab edilir, onlarda bacarıqları formalaşdıra bilmək imkanının olması üstün cəhət kimi dəyərləndirilir. Bunun üçün kifayət qədər müxtəlif növ çalışma və tapşırıqlardan istifadə edilməsi tələb olunur" [Əlizadə Ə. İdrak prosesləri və hisslər. Psixopedaqoji məsələlər. Bakı, 2006.].

Azərbaycan dili dərslikləri sistemində həm də elə materiallar verilir ki, onların vasitəsilə şagirdlərin inkişafını təmin etmək, izləmək mümkün olur. Uşaqlar dərketmə prosesinin müxtəlif mərhələlərində anlama, tətbiqetmə, təhliletmə və s. bacarıqlar nümayiş etdirirlər.

**3.*Dərsliyin inteqrativ xarakterə malik olması.***

Hər bir dərslik yalnız nəzəri materiallardan ibarət deyildir, yaxud əksinə, dərsliklər yalnız praktik çalışmaları ehtiva etmir. Dərsliklərdə nəzəri və praktik materiallar əlaqələndirilir, vahid bir istiqamətə yönəldilir. Həmin materiallar üzərində işləyən şagirdlər tədricən müəyyən biliklərin bazasında bacarıq və vərdişlərə, qabiliyyətlərə sahib olmaqla, əvvəlcədən nəzərdə tutulmuş səriştələrə yiyələnirlər. Beləliklə, nəzəri və praktik materiallar qovşağında dərsliyin inteqrativ xarakteri təzahür edir. Belə əlaqələndirmə şəraitində hər şey təbii yollarla baş verir.

Dərslikdə müəyyən fəaliyyətlərin əlaqələndirilməsi nəzərdə tutulmuş biliklərin daha möhkəm mənimsənilməsi baxımından əhəmiyyət daşıyır. Əslində, fəaliyyət öz-özlüyündə idrakla bağlı anlayışdır. İdrak olmadan fəaliyyət yoxdur. “İdrak insan şəxsiyyətinin bütün cəhətlərinə nüfuz edir. Bu da ondan irəli gəlir ki, idrak, hər şeydən əvvəl, fəaliyyətdir” [Bayramov Ə., Əlizadə Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı, “Maarif”, 1989].

Azərbaycan dili dərsliyini hazırlayanlar anlamaq, təqdim etmək, tətbiq etmək, analiz etmək kimi hər hansı fəaliyyət növünün mənimsənilməsi üçün, ilk növbədə, onların arasındakı əlaqəyə müraciət edir, onların bir-birini stimullaşdıra bilmək imkanlarını diqqət mərkəzində saxlayırlar, məsələn, oxu və yazı, danışma ilə dinləyib-anlama fəaliyyət növləri deyilənlərə misal ola bilər. Bütün bunlara əsasən aşağıdakıların nəzərə alınması məqsədəuyğun hesab edilir.

1.Ana dili dərslikləri müasir ədəbi dilin öyrədilməsinə yönəlməli, bunun üçün müasir ədəbi dil nümunələri və dil qaydaları ilə əhatə olunmalıdır. Dərslikdə ədəbi dilin üslublarına aid müxtəlif təlim materiallarına yer ayrılmalıdır.

2.Ana dili dərsliklərindəki materiallar şagirdlərdə nitq mədəniyyətinin formalaşmasına yönəldilməlidir. Bunun üçün dərsliklərin ümumi sistemində nitq inkişafına dair materiallara üstünlük verilməli, şagird nitqinin düzgün, dəqiq və ifadəli olması diqqət mərkəzində saxlanmalıdır.

3. Dil və təfəkkürün əlaqəsi onların hər ikisinin inkişafı üçün zəmin yaradır. Dil faktlarının nümunələri əsasında şagirdlərdə düşüncə tərzinin, intellektin inkişaf etməsi üçün geniş imkanlar vardır. Ana dilindən hazırlanmış idrak fəaliyyətinə dair tapşırıq və çalışmalarla onlarda ümumiləşdirmə, xüsusiləşdirmə, mücərrədləşdirmə, təhlil, tərkib, qruplaşdırma kimi bacarıqları formalaşdırmaq mümkündür.

4. Ana dili dərslikləri hazırkı şəraitdə daha çox istiqamətverici, zəruri məlumat mənbəyi olmaqdan əlavə, həm də şagirdləri axtarışa, düşünməyə, yaradıcılığa sövq edir.

5. Ana dili dərslikləri milli və bəşəri dəyərlərin qovşağında olmaqla yanaşı, uşaqların milli-mənəvi keyfiyyətlərə, bəşəri xüsusiyyətlərə yiyələnmələri üçün baza rolunu oynayır.

**Ədəbiyyat**

1.Bayramov Ə., Əlizadə Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı, “Maarif”, 1989
2.Əlizadə Ə. İdrak prosesləri və hisslər. Psixopedaqoji məsələlər. Bakı, 2006.
3.İsgəndərov İ. Yeni dərsliklər necə olmalıdır? “Kurikulum” jurnalı, 2008, №2.

**E-mail: abbasov_anver@mail.ru**
**Redaksiyaya daxil olub: 15.07.2019**